**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# AZƏRBAYCANIN BEYNƏLXALQ ƏMƏK BÖLGÜSÜNDƏ İŞTİRAKININ GENİŞLƏNDİRİLMƏSİ İSTİQAMƏTLƏRİ

| | |
|---|---|
| İxtisas: | 5310.01 - "Dünya iqtisadiyyatı" |
| Elm sahəsi: | İqtisad elmləri |
| İddiaçı: | **Nicat Hafiz oğlu Muxtarlı** |

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın
**AVTOREFERATI**

**BAKI – 2021**

Dissertasiya işi Azərbaycan Qərbi Kaspi Universitetində yerinə yetirilmişdir.

Elmi rəhbər: iqtisad elmləri doktoru, professor
**Gəncəli Əziz oğlu Gənciyev**

Rəsmi opponentlər: iqtisad elmləri doktoru, professor
**Rövşən Rasim oğlu Quliyev**

iqtisad elmləri doktoru, professor
**Səfər Həsənoğlu Pürhani**

iqtisad üzrə fəlsəfə doktoru
**Mirzai Cabir Cəbrayıl oğlu**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Dövlət İqtisad Universitetinin nəzdində fəaliyyət göstərən FD 1.11 Dissertasiya şurası

Dissertasiya şurasının sədri: ______________ imza

Əməkdar elm xadimi
iqtisad elmləri doktoru, professor,
**Yadulla Həmdulla oğlu Həsənli**

Dissertasiya şurasının elmi katibi: ______________ imza

iqtisad elmləri namizədi
**Rəşad Aktiv oğlu Hüseynov**

Elmi seminarın sədri: ____________________ imza

iqtisad elmləri doktoru, dosent
**Müşfiq Yelmar oğlu Quliyev**

# İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Beynəlxalq Əmək Bölgüsündə iştirak etmək ölkələrə sahib olduqları maddi və mənəvi potensialdan səmərəli şəkildə istifadə etməyə, elmi-texniki tərəqqinin nailiyyətlərini, bu sahədəki yenilikləri qısa müddətdə və çevik şəkildə tətbiq etməyə geniş imkanlar yaradır. Beynəlxalq rəqabətə qoşulan ölkələr malik olduqları potensial imkanlara uyğun sahələrdə rəqabət üstünlüyü əldə etməklə müvafiq sahələr üzrə beynəlxalq səviyyədə ixtisaslaşırlar.

Azərbaycan Respublikasında müstəqilliyinin ilk dövrlərindən başlayaraq beynəlxalq əmək bölgüsündə iştirakına və onun genişləndirilməsinə xüsusi diqqət göstərilmiş və bu istiqamətdə çoxlu sayda tədbirlər həyata keçirilmiş, Prezident Fərmanları və Sərəncamları verilmiş, Dövlət Proqramları, Strategiyalar və Konsepsiyalar qəbul edilmişdir. Respublikamızda son dövrlərdə icra edilən "Azərbaycan 2020: Gələcəyə baxış inkişaf konsepsiyası", "Milli iqtisadiyyat və iqtisadiyyatın 11 əsas sektorunu əhatə edən Strateji Yol Xəritə"ləri qeyd edilən məqsədə nail olunmaq üçün reallaşdırılan önəmli tədbirlərdəndir.

Respublikamızın BƏB-də iştirakının təmin edilməsi istiqamətində kifayət qədər inkişaf etmiş elmi potensial və böyük həcmdə istifadə edilə biləcək imkanları vardır. Xüsusilə, hazır məhsullar, məmulat və yarımfabrikatlar, o cümlədən, neft kimyası, kimya, yod istehsalı, informasiya texnologiyaları, beynəlxalq turizm, beynəlxalq nəqliyyat, dağ-mədən sənayesində, yağlı bitkilər istehsalında, çayçılıqda və başqa sahələrdə Azərbaycanı beynəlxalq əmək bölgüsündə təmsil edəcək səviyyədə ehtiyatlar mövcuddur. Lakin hazırki şəraitdə statistik rəqəmlərə nəzər yetirdikdə respublikamızın malik olduğu potensialdan lazımi səviyyədə istifadə edilmədiyini və dünya iqtisadiyyatında layiq olduğu yerdən aşağı mövqedə yerləşdiyini müşahidə etmək mümkündür. Belə ki, xarici ticarət mübadilələrində neft və neft məhsullarının yüksək çəkiyə malik olması, xidmətlərin beynəlxalq ticarəti üzrə turizm və nəqliyyat xidmətləri ixracının mövcud potensialdan aşağı səviyyədə olması, bir çox hazır məhsullar üzrə ixrac imkanlarından lazımi səviyyədə istifadə edilməməsi, son

illərdə ölkəyə birbaşa xarici investisiyaların cəlb edilməsində azalmanın olması və bu kimi çatışmazlıqların aradan qaldırılması məqsədilə geniş tədqiqatlar aparılaraq müvafiq tövsiyələrin verilməsini zəruri edir. Bütün bunlar əsas verir qeyd edək ki, dissertasiya işinin mövzusu çox aktual iqtisadi problemlərdən birinə həsr olunmuşdur.

Azərbaycan Respublikasında beynəlxalq əmək bölgüsü problemlərinin müxtəlif istiqamətləri üzrə tanınmış iqtisadçı alimlərdən Z.Səmədzadə, M.Əhmədov, D.Vəliyev, C.Kərimov, G.Gənciyev, Ş.Qafarov, A.Şəkərəliyev, X.Hüseynova, M.Quliyev, Ş.Hacıyev, Ç.Abbasov, A.Əliyev və s. tərəfindən çox ətraflı tədqiqatlar aparmışlar.

Beynəlxalq əmək bölgüsünün müxtəlif aspektləri həmçinin xarici ölkə alimlərindən M.Porter, R.Kembelli, T.Teor, P.Samuelson, R.Prebiş, J.Markusen, J.Stiglitz, İqolkin A., Motılyev B., K.Semyunov, İ.Balabanov, A.Basov, Y.Mazilkina, Q.Paniçkina, N.Mansurova, A.Sirotin, A.Anuçin, K.Obçinnikov, A.Kuplev, E.Avdokuşin və s. tərəfindən araşdırılmışdır.

**Tədqiqatın obyekt və predmeti.** Tədqiqatın obyektini beynəlxalq əmək bölgüsü təşkil edir. Tədqiqatın predmetini isə Azərbaycanın potensial imkanlarının nəzərə alanması əsasında onun beynəlxalq əmək bölgüsündə iştirakının genişləndirilməsi istiqamətlərinin araşdırılması təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın məqsədi Azərbaycanın potensial imkanlarını nəzərə alaraq, respublikamızın ixrac spektrini genişləndirmək yolu ilə beynəlxalq əmək bölgüsündə iştirakının genişləndirilməsi istiqamətlərinin müəyyənləşdirilməsidir.

İşin əsas məqsədinə uyğun olaraq tədqiqatın vəzifələri aşağıdakı kimi müəyyən olunmuşdur:

1) Azərbaycanın beynəlxalq əmək bölgüsündə iştirakının genişləndirilməsi zəruriliyini əsaslandırmaq;

2) Dünyanın bir sıra ölkələrinin beynəlxalq əmək bölgüsündə iştiraklarının genişləndirilməsi təcrübələrinin öyrənilməsi;

3) Respublikamızda sahələr üzrə istehsal olunan məhsulların beynəlxalq əmək bölgüsündə yerini qiymətləndirmək;

4) Beynəlxalq əmək bölgüsünün göstəricilər sistemini dəqiqləşdirmək;

5) Ölkənin beynəlxalq əmək bölgüsündə iştirakının mövcud vəziyyətini təhlil etmək;

6) Azərbaycanda alternativ ixrac sektorunun yaradılmasının beynəlxalq əmək bölgüsünün imkanlarından istifadə edilməsinə təsirini müəyyənləşdirmək;

7) Respublikanın beynəlxalq əmək bölgüsündə iştirakının prioritetlərinin müəyyən edilməsi istiqamətində təkliflər hazırlamaq.

**Tədqiqat metodları.** Tədqiqatın nəzəri-metodoloji əsaslarını klassik və neoklassik alimlərin, yerli və xarici iqtisadçı alimlərin emi əsərləri, Milli Məclis tərəfindən qəbul edilmiş qanunlar, hüquqi-normativ aktlar, ölkə prezidentinin fərmanları, sərəncamları təşkil edir.

Nəzəri və təcrübi məsələlərin həlli zamanı sistemli və müqayisəli təhlil metodları, eksert qiymətləndirmələri, iqtisadi təhlil, ümumiləşdirmə və digər metodlardan istifadə olunmuşdur.

**Müdafiəyə çıxarılan əsas müddəalar:**

1. Beynəlxalq əmək bölgüsünün milli iqtisadiyyatlar səviyyəsində inkişaf xüsusiyyətləri əsaslandırılmışdır;

2. Makro və mikro səviyyədə beynəlxalq əmək bölgüsünün göstəricilər sistemi konkretləşdirilmişdir;

3. Azərbaycanın hazır məhsullar üzrə beynəlxalq əmək bölgüsündə mövqeyinin möhkəmləndirilməsi istiqamətində imkanları qiymətləndirilmişdir;

4. Ölkəmizin turizm xidmətləri və nəqliyyat xidmətləri üzrə beynəlxalq əmək bölgüsündə iştirakının mövcud durumu və inkişaf perspektivləri tədqiq edilmişdir;

5. Azərbaycanın birbaşa xarici investisiyalar, yüksək texnoloji məhsullar ixracı və miqrasiya məsələləri üzrə beynəlxalq əmək bölgüsündə iştirakının genişləndirilməsi imkanları qiymətləndirilmişdir;

6. Respublikamızın xammal və yarımfabrikatlar üzrə beynəlxalq əmək bölgüsündə iştirakının genişləndirilməsi prioritet istiqamət kimi müəyyənləşdirilmişdir;

7. Ölkənin beynəlxalq əmək bölgüsündə iştirakının genişləndirilməsi istiqamətində təklif və tövsiyələr işlənib hazırlanmışdır.

**Tədqiqatın elmi yeniliyi.** Dissertasiyanın elmi yeniliyi beynəlxalq əmək bölgüsünün inkişafının nəzəri metoloji aspektlərinin və

Azərbaycanın beynəlxalq əmək bölgüsündə iştirakının mövcud vəziyyəti və inkişaf imkanlarının sistemli təhlili əsasında beynəlxalq əmək bögüsündə iştirakının genişləndirilməsi üçün əməli tədbirlər üzrə təkliflərin hazırlanmasından ibarətdir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.**Tədqiqat çərçivəsində müəllif tərəfindən alınmış nəticələr müfaviq dövlət idarəetmə orqanları tərəfindən Azərbaycanın beynəlxalq əmək bölgüsündə iştirakının əhəmiyyətli dərəcədə genişləndirilməsi üçün istifadə oluna bilər.

**Aprobasiyası və tətbiqi.** Dissertasiya işinin əsas məzmunu, irəli sürülən nəzəri-metodoloji və praktiki əhəmiyyətli mülahizələr, təkliflər sosial-iqtisadi inkişafın mühüm problemlərinə həsr olunmuş elmi-praktiki konfranslarda məruzə edilmişdir. Müəllif tərəfindən yerli elmi nəşrlərdə 6, xarici elmi nəşrlərdə isə 1-i olmaqla, ümumilikdə 7 elmi məqalə çap edilmişdir.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya işi Azərbaycan Qərbi Kaspi Universitetində yerinə yetirilmişdir.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi.** Dissertasiya işi giriş, üç fəsil, nəticə, istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir. Giriş – 5 səhifə, 8.439 işarə, I fəsil – 40 səhifə, 78.951 işarə, II fəsil – 52 səhifə, 96.168 işarə, III fəsil – 39 səhifə, 73.437 işarə, nəticə və təkliflər – 5 səhifə, 9.052 işarə, istifadə olunmuş ədəbiyyat siyahısı – 8 səhifə, 11.449 işarədən ibarət olmaqla, dissertasiyanın ümumi həcmi 152 səhifə ( 279.727 işarə.

# DİSSERTASİYANIN ÜMUMİ MƏZMUNU

Dissertasiya işinin girişində mövzunun aktuallığı əsaslandırılmış, problemin elmi işlənmə dərəcəsi, işin məqsəd və vəzifələri, tədqiqatın obyekt və predmeti, dissertasiyanın nəzəri və metodoloji əsasını, həmçinin onun informasiya bazasını təşkil edən mənbələr, işin elmi yeniliyini təşkil edən müddəaları, alınan nəticələrinin nəzəri və praktik əhəmiyyəti, tədqiqat üzrə dərc olunmuş məqalə və tezislər haqqında məlumat və dissertasiya işinin həcmi və strukturu şərh olunmuşdur.

"**Beynəlxalq əmək bölgüsünün inkişafinin nəzəri-metodoloji əsasları**" adlanan **birinci fəsildə** beynəlxalq əmək bölgüsünün nəzəri – konseptual əsasları hərtərəfli araşdırılmış, beynəlxalq əmək bölgüsünün inkişaf mərhələlərinin modelləri və inkişafının əsas amilləri, onun səviyyəsini xarakterizə edən göstəricilər sistemli təhlil olunmuşdur.

Bu fəsildə müəllif tərəfindən aşağıdakı nəticələr əldə edilmişdir:

**I Beynəlxalq əmək bölgüsünün nəzəri əsaslarını təşkil edən "Mütləq üstünlüklər nəzəriyyəsi", "Müqayisəli üstünlüklər nəzəriyyəsi", "İstehsal amillərinin nisbəti nəzəriyyəsi", "Texnoloji üstünlük nəzəriyyəsi", "Məhsulun həyat dövrü nəzəriyyəsi" və "Ölkələrin rəqabət üstünlükləri nəzəriyyəsi" müqayisəli təhlil olunmuşdur.** Qeyd edilmişdir ki, ölkənin BƏB-də iştirakının artırılması məqsədilə texnoloji üstünlüyə və rəqabət üstünlüyünə malik olmalıdır.

Araşdırılmış nəzəriyyələr və respublikamızın malik olduğu potensial nəzərə alınaraq vurğulanmışdır ki, onun beynəlxalq əmək bölgüsündə iştirakı yeni texnoloji və elmtutumlu məhsulların istehsalı və ixracı əsasında təmin edilməsi daha məqsədəuyğundur. Bu istiqamətdə müəyyən məhsullar üzrə ixtisaslaşmanın təmin edilməsi, rəqabət üstünlüyünün formalaşması və xammal yönümlü ixracdan hazır məhsul ixracının artırılması daha faydalıdır.

**Beynəlxalq əmək bölgüsünün iki əsas istiqaməti -** ölkələrin beynəlxalq səviyyədə ixtisaslaşmaları və onlar arasında kooperasiya əlaqələrinin yaranması, genişlənməsi qeyd olunmuşdur.

**II İstehsalın beynəlxalq ixtisaslaşmasının formaları və istehsal sahəsi baxımından ixtisaslaşmanın səviyyələri, ixtisasaşmanın mərhələləri dəqiqləşdirimişdir. Göstərilir ki,** istehsalın beynəlxalq

ixtisaslaşması bir neçə mərhələ üzrə baş verir. Bunlar aşağıdakılardır:

a) əşya üzrə, yəni hazır məhsulların istehsalı əsasında ixtisaslaşma;

b) hissələr üzrə, yəni, ayrı-ayrı detallar və qovşaqların istehsalına görə ixtisaslaşma;

c) mərhələlər üzrə və ya texnoloji, yəni müxtəlif əməliyyatlar üzrə ixtisaslaşma.

**III Beynəlxalq əmək bölgüsünün inkişafında ölkələr arasında kooperasiya əlaqələrinin qurulmasının əhəmiyyəti qeyd olunmaqla bu əlaqələrin reallaşdırılması metodları dəqiqləşdirilmişdir.**

Beynəlxalq kooperasiya əlaqələrinin qurulması zamanı 3 əsas metoddan istifadə edilməsi məqsədəuyğun hesab edilir:

1) Birgə fəaliyyət proqramlarının reallaşdırılması;

2) Müqavilə üzrə ixtisaslaşma;

3) Birgə müəssisələrin yaradılması və fəaliyyətinin təmin edilməsi.

Qeyd edilmişdir ki, ölkələr ilkin inkişaf mərhələlərində idxalı əvəzləmə siyasətindən istifadə etmiş və tədricən ixracın stimullaşdırılmasına istiqamətlənmişlər.

Ölkənin BƏB-də iştirakında birbaşa xarici investisiyaların və miqrasiya məsələlərinin rolu böyükdür. BXİ ölkədə ixracın artırılmasına birbaşa və dolayı təsiri vardır. Eyni zamanda miqrasiya ölkənin idxalını və ixracını stimullaşdırmaq gücünə malikdir.

Qeyd edilmişdir ki, respublikamızın BƏB-də iştirakının genişləndirilməsi məqsədilə idxalı əvəzləmə və ixracın stimullaşdırılması siyasəti eyni zamanda reallaşdırılmalıdır və bu istiqamətdə BXİ və miqrasiya məsələlərinə daha çox diqqət yetirmək qarşıya qoyulmuş məqsədin nail olunmasında yardımçı ola bilər.

**IV Dünya təsərrüfatı miqyasında beynəlxalq əmək bölgüsünün inkişafına təsir göstərən amillər və bu inkişafı xarakterizə edən göstəricilər sistemi dəqiqləşdirilmişdir.**

Dünya təsərrüfatı miqyasında beynəlxalq əmək bölgüsünün inkişafına təsir göstərən amillər kimi aşağıdakılar qeyd olunmuşdur:

-Təbii ehtiyatların ölkələr üzrə fərqli dərəcədə paylanması;

-Torpaq-iqlim ehtiyatları;

-Ölkənin coğrafi mövqeyi;

-Əmək ehtiyatlarının kəmiyyət fərqləri, demoqrafik vəziyyət və ölkənin yüksək ixtisaslı kadr potensialının olması;

- Ölkələrin daxili bazarlarının həcmindəki fərqlər;
- Ölkələrin məhsuldar qüvvələrinin inkişaf səviyyəsi və əmək məhsuldarlığının artırılması imkanları;
- İqtisadi maraqlar və mənafelər;
- Elmi-texniki tərəqqi və inkişaf prosesləri;

"**Azərbaycanın beynəlxalq əmək bölgüsündə iştirakının müasir vəziyyətinin tədqiqi**"adlı **ikinci fəsildə** dünyanın İEÖ, İEOÖ və Azərbaycanın BƏB-də iştirakının müasir vəziyyəti təhlil edilmiş, respublikamızın sahələr üzrə beynəlxalq əmək bölgüsündə iştirak imkanları nəzərdən keçirilmiş və ölkəmizin sahələr üzrə beynəlxalq əmək bölgüsünün inkişafının potensial imkanları qiymətləndirilmişdir.

Bu fəsildə işin elmi yeniliyi kimi aşağıdakı müddəalar təklif olunur.

**I. Azərbaycanın hazır məhsullar, xidmətlər, birbaşa xarici investisiyalar, yüksək texnoloji məhsullar və miqrasiya məsələləri üzrə beynəlxalq əmək bölgüsündə yerinin möhkəmləndirilməsi istiqamətində imkanları qiymətləndirilmişdir.**

**II. Azərbaycanda sahələr üzrə beynəlxalq əmək bölgüsünün inkişafının potensial imkanları qiymətləndirilmişdir.**

Azərbaycanın beynəlxalq əmək bölgüsündə iştirak imkanlarının ölkə sistemləri üzrə nəzərdən keçirilməsi elmi və praktiki cəhətdən əsaslandırılmış tövsiyələrin irəli sürülməsinə əsas verir.

Tədqiqatlar üçün beynəlxalq təcrübəyə uyğun olaraq bütün ölkələr iki qrup - İEÖ (İnkişaf etmiş ölkələr) və İEOÖ (İnkişaf etməkdə olan ölkələr) kimi baxılmışdır.

Tədqiqatlar göstərir ki, İEÖ daha çox hazır məhsullar, xüsusilə də elm tutumlu sahələr, eləcə də xidmətlər üzrə ixtisaslaşır.

Beynəlxalq əmək bölgüsündə hazır məhsul istehsalı üzrə ixtisaslaşmış ən iri İEÖ, əlbəttə ki, «Böyük Yeddilər» (G–7) qrupuna daxil olan dövlətlərdir. G–7 qrupu və ya «Böyük Yeddiliyin» payına 2019-cu ildə hazır məhsulun dünya ixracının 31,2%-i düşür.

Xidmətlərin istehsalı və ixracı da İEÖ-lərin Beynəlxalq əmək bölgüsündə iştirak istiqamətlərindən biridir. Buraya beynəlxalq və tranzit nəqliyyatın bütün növləri, turizm, bank və sığorta xidmətləri, reklam, incəsənət əsərlərinin satışı, təhlil, səhiyyə xidmətləri, proqram

təminatı, ticarət vasitəçilik xidmətləri və s. aiddir. İEÖ-in dünya xidmətlər bazarında iştirak payı 67,9%-dir. G–7 qrupundan olan İEÖ-in payına 2019-cu ildə dünya üzrə xidmətlər ixracının 38.2%-i düşür.

Birbaşa Xarici İnvestisiyaların cəlb edilməsinə nəzər yetirdikdə inkişaf etmiş ölkələr daha çox paya malik olduğu aydın görünür. Belə ki, 2019-cu ildə dünya üzrə 1545 milyard ABŞ dəyərində BXİ cəlb edilmişdir ki, bu rəqəmin 800 milyard ABŞ dolları İEÖ-nin payına düşmüşdür. 2019-cu ildə dünya üzrə xarici ölkələrə yatırılan BXİ-nin həcmi isə 1314 milyard ABŞ dolları dəyərində olmuşdur ki, bu rəqəmin 917 milyard ABŞ dolları İEÖ-nin payına düşmüşdür.

BMT-nin İqtisadi və Sosial Məsələlər üzrə Departamentinin (DESA) verdiyi statistik rəqəmlərə əsasən 2019-cu ildə dünyada beynəlxalq miqrantların sayı 272 milyon nəfər olmuşdur ki, bu da 2010-cu ildə olan rəqəmdən 51 milyon nəfər çoxdur. Bu miqrantların 56%-i inkişaf etmiş ölkələrə, 44%-i isə inkişaf etməkdə olan ölkələrə miqrasiya etmişlər.

Beynəlxalq statistikaya əsasən hazırda İEOÖ-in sırasına 130-dan çox ölkə daxildir. Bu ölkələrdə yaşayan əhali ümumilikdə dünya əhalisinin 75%-ni təşkil edir.

Hər nəfərə düşən ÜDM İEÖ-lərdə orta hesabla 47000 ABŞ dolları olduğu halda, İEOÖ-lərdə bu rəqəm 5500 ABŞ dolları təşkil etməsinə baxmayaraq bu qrupa daxil olan ölkələr inkişaf səviyyəsi baxımından bir-birlərindən əhəmiyyətli dərəcədə fərqlənirlər. XX əsrin 70-ci illərindən etibarən bu fərq daha da dərinləşmişdir. Belə ki, 2019-cu ildə inkişaf etməkdə olan ölkələr içərisində Qərbi Asiya ölkələrində hər nəfərə düşən ÜDM 12500 ABŞ dolları, Şərqi Asiya ölkələrində 9000 ABŞ dolları, Latin Amerikası ölkələrində 8000 ABŞ dolları, Cənubi Asiya ölkələrində 2100 və Afrikada 2000 ABŞ dolları dəyərində olmuşdur.

İEOÖ-in, həmçinin Azərbaycan ixracının əsas hissəsini məhz xammal təşkil edir. Beynəlxalq əmək bölgüsü sistemində bu ölkələr həm ilkin xammal, həm də müəyyən dərəcədə emal edilmiş xammal ehtiyatlarının ixracı üzrə ixtisaslaşıblar. İEÖ-lər isə İEOÖ-lərin emal sənayelərinə kapital qoyuluşlarına bir o qədər də maraqlı deyildirlər, çünki İEÖ-lər İEOÖ-lərin təbii ehtiyatlarını öz emal sənayeləri üçün əsas xammal bazası hesab edirlər. Belə vəziyyət İEOÖ-in Beynəlxalq

əmək bölgüsü sistemində vertikal inkişaf modeli əsasında inkişaf etmələrini dərinləşdirir. Təsadüfi deyildir ki, İEOÖ-in ixracının əsasən müxtəlif növ xammaldan ibarət olan 56%-i, gəlirlərinin isə 40%-i İEÖ-in bazarlarında reallaşır.

İEOÖ-in müasir dövrdə Beynəlxalq əmək bölgüsündə mövqelərinin möhkəmlənməsinin ən əsas səbəblərindən biri onlarda təkrar istehsal prosesinin tamlıq, bütövlük səviyyəsinin artması və tədricən onun milli iqtisadi bazaya keçirilməsi istiqamətində yürüdülən siyasətdir. Hazırda bu siyasəti həyata keçirməyə bəzi amillər imkan verir.

Hesab edirik ki, İEOÖ-in BƏB-də effektiv iştirakına mane olan həmin problemlərin aradan qaldırılması üçün onlar BƏB-in ixracyönlü modelinə keçməlidirlər. Lakin fikrimizcə bunun üçün zəruri olan tədbirlər «şok terapiyası» vasitəsilə deyil, ən azı 2 mərhələdə həyata keçirilməlidir. Birinci mərhələdə proteksionizm siyasəti əsaslı şəkildə yumşaldılmalı, ixracın stimullaşdırılması məqsədilə müxtəlif tədbirlər tətbiq edilməlidir. İkinci mərhələdə ixracyönlü iqtisadiyyatın infrastrukturu, qanunvericilik bazasının formalaşdırılması tamamlanmalı və proteksionizm siyasəti tamamailə aradan qaldırılmalıdır.

Respublikamızın BƏB-də hazırki durumunu təhlil etdikdə aydın olur ki, ixracımızın əsas hissəsini neft və neft məhsulları təşkil edir. Qeyri-neft ixracında isə kənd təsərrüfatı məhsulları üstünlük təşkil edir. Bu səbəbdən də əmtəə ixracında şaxələndirməyə böyük ehtiyac vardır. İxracın şaxələndirilməsi məqsədilə kapital və aralıq məhsulları idxalının həcmini artırmaq faydalı olardı.

Son illərdə xidmətlər ixracında artım müşahidə edilsə də ölkəmizin malik olduğu potensialdan aşağı səviyyədədir. Bu səbəbdən də ilkin halda turizm və nəqliyyat xidmətləri ixracına xüsusi diqqət göstərilməlidir.

Cədvəl 1

2017-2019-cu illər üzrə Azərbaycanın turizm xidmətləri ixracı

(məbləğ min ABŞ dolları ilə)

| | **2017** | **2018** | **2019** |
|---|---|---|---|
| **Bütün xidmətlər ixracı** | 4 688 439 | 4 690 704 | 3 761 480 |
| **Turizm xidmətləri** | 3 011 781 | 2 634 163 | 1 791 514 |
| Fərdi səyahət | 2 286 894 | 2 036 827 | 1 435 377 |
| Biznes səyahəti | 724 887 | 597 336 | 356 137 |

Respublikamızın turizm xidmətləri ixracına nəzər yetirdikdə biznes səyahəti ixracının daha az çəkiyə malik olduğunu müşahidə etmək olar.

Cədvəl 2

2017-2019-cu illər üzrə Azərbaycanın nəqliyyat xidmətləri ixracı (məbləğ min ABŞ dolları ilə)

| | 2017 | 2018 | 2019 |
|---|---|---|---|
| **Bütün xidmətlər ixracı** | 4 688 439 | 4 690 704 | 3 761 480 |
| **Nəqliyyat xidmətləri** | 971 396 | 1 223 822 | 1 107 970 |
| o cümlədən | | | |
| Hava nəqliyyatı | 439 559 | 782 668 | 680 039 |
| Dəniz nəqliyyatı | 175 227 | 146 379 | 129 684 |
| Başqa nəqliyyat növü (dəniz və hava nəqliyyatından savayı) | 350 689 | 288 095 | 294 484 |
| Poçt və kuryer xidmətləri | 5 921 | 6 680 | 3 763 |

İxrac potensialının artırılması məqsədilə son illərdə azalma müşahidə edilən BXİ-nin ölkəyə cəlb edilməsini artırmaq məqsədəuyğundur. MDB ölkələri ilə müqayisə apardıqda respublikamızda bu sahədə geriləmə olduğunu müşahidə etmək olur.

Cədvəl 3

2017-2019-cu illər üzrə MDB ölkələri üzrə cəlb olunan BXİ-nin həcmi (milyon ABŞ dolları ilə)

| | **Cəlb olunan BXİ** | | |
|---|---|---|---|
| | **2017** | **2018** | **2019** |
| Rusiya | 25 954 | 13 228 | 31 735 |
| Qazaxıstan | 4 669 | 3 757 | 3 118 |
| Ukrayna | 2 601 | 2 355 | 3 070 |
| Özbəkistan | 1 797 | 625 | 2 286 |
| Türkmənistan | 2 086 | 1 985 | 2 166 |
| Belarus | 1 279 | 1 432 | 1 293 |
| Azərbaycan | 2 866 | 953 | 1 053 |
| Moldova | 157 | 308 | 589 |
| Ermənistan | 251 | 254 | 254 |
| Tacikistan | 307 | 360 | 213 |
| Qırğızıstan | 222 | 139 | 209 |

Eyni zamanda respublikamızın BƏB-də iştirakını artırmaq məqsədilə miqrasiya məsələlərinə və yüksək texnologiyalar mübadiləsinə daha çox diqqət göstərilməlidir.

Tədqiqatlarımız göstərir ki, respublikamız hazırda mövcud sənaye və resurs potensialı əsasında BƏB-də aşağıdakı sahələrdə hazır məhsulların istehsalı və ixracı üzrə ixtisaslaşa bilər:

- neft kimyası;
- yüngül sənaye;
- turizm xidmətləri;
- nəqliyyat xidmətləri;
- injirinq - konsaltinq xidmətləri.

Fikrimizcə, Azərbaycanın uğurla ixtisaslaşmalı olduğu perspektivli sahələrdən biri neft – kimya sənayesidir. Neft-kimya sənayesində Azərbaycanın malik olduğu ən vacib müqayisəli üstünlükərə aşağıdakıları aid etmək olar:

- əsas xammal - Azərbaycan nefti yüksək keyfiyyətlidir.
- BƏB-də neft-kimya sənayesi məhsullarının ən iri ixracçıları ABŞ, Yaponiya, Almaniyadan fərqli olaraq, Azərbaycan xammalı çox uzaq məsafədən idxal etmir, xammal mənbələri yaxında yerləşdiyi üçün nəqliyyat xərcləri cüzidir.
- Azərbaycanda iri neft-kimya sənaye parkı mövcuddur və hətta istehsal potensialı xammal hasilatını üstələyir. Eyni zamanda müvafiq sənaye strukturunun geniş şəbəkəsi də vardır. Bu böyük istehsal güclərinin yenidən işə salmaq üçün avadanlıqlar və texnologiyaların alınması, infrastrukturun modernizasiyası məqsədilə neft-kimya sənayesinə qoyulan müasir investisiyalarla müqayisədə əslində cüzi vəsait tələb olunur.
- neft-kimya, üzvi kimya və sənayenin bir çox digər istiqamətlərində respublikamızın güclü ixtisaslı kadr potensialı vardır ki, bütün bunlar ölkəmizin BƏB sisteminin üstünlüklərindən səmərəli şəkildə istifadə edilməsinin mühüm şərti kimi qiymətləndirilməlidir.

Azərbaycanın müasir dövrdə BƏB-də inkişafının potensial imkanlarının ən çox olduğu sahələrdən biri də yüngül sənayedir. Fikrimizcə, Azərbaycanın yüngül sənaye üzrə ixtisaslaşmada malik olduğu əsas üstünlüklərə aşağıdakılar daxildir:

- yüngül sənaye əsasən əməktutumlu sferadır. Azərbaycanda isə

əmək resursları həm boldur, həm də nisbətən ixtisaslı və çox ucuzdur.

- Azərbaycan yüngül sənayesi üçün zəruri olan bütün növ təbii və sintetik xammala tələbatı yerli istehsal hesabına tam ödəmək imkanlarına malikdir.

- Respublikamızın demək olar ki, bütün rayonlarında köhnə olsa da, yüngül sənaye müəssisələri mövcuddur. Çox da böyük olmayan xərclərlə onların dünya standartlarına uyğun məhsul buraxmasını təmin etmək mümkündür.

Hazırki dövrdə ölkəmizin BƏB-də iştirakını genişləndirmək üçün perspektivli sahələrdən biri turizm xidmətlərinin ixracıdır. Bu məqsədlə təsdiq edilmiş "Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi"nin reallaşdırılması nəticəsində 2025-ci ilə qədər və sonrakı müddət ərzində respublikamızın regionda və başqa ölkələr arasında cəlbedici turizm məkanlarından birinə çevrilməsi və respublikamızın dünya turistlərinin üstünlük verdikləri 20 turizm ölkəsindən birinə çevrilməsi baş verəcəkdir.

Müasir dövrdə Azərbaycanın BƏB-in üstünlüklərindən istifadə etmək üçün vacib sahələrdən biri nəqliyyat xidmətlərinin ixracı və beynəlxalq yükdaşımaların təşkili sahəsidir.

Yaxın perspektivdə respublikamız Avropa ilə Asiya arasında güclü beynəlxalq nəqliyyat qovşağına çevrilə bilər. Eyni zamanda Azərbaycan dövlətinin səyləri nəticəsində 2017-ci ildə istifadəyə verilmiş Bakı-Tbilisi-Qars dəmir yolunun açılması qeyd etdiyimiz istiqamətdə respublikamızın beynəlxalq nüfuzunun artmasına, ən qısa yolla müxtəlif təyinatlı yükləri Çindən Avropaya daşınmasına imkan verəcəkdir.

Beynəlxaln nəqliyyat dəhlizlərinin Azərbaycandan keçməsi Şərqdən Qərbə qədər olan məsafəni 4000 km qısaldır. Bundan əlavə müqayisə üçün qeyd edək ki, Qazaxıstan neftinin Rusiya ərazisindən Aralıq dənizinə daşınması üçün hər barrelə 4,7 ABŞ dolları sərf olunursa, Bakı-Tbilisi-Ceyhan marşrutu üzrə bu göstərici cəmi 3,8 ABŞ dollarına başa gəlir.

Azərbaycanda milli iqtisadiyyatımızda mövcud əmək qabiliyyətli işçilərin 38%-nin çalışdığı kənd təsərrüfatı sahəsində də BƏB-dən faydalanmaq üçün böyük potensial imkanlar vardır.

Qeyd etmək lazımdır ki, respublikamızda istehsal olunan ekoloji

təmiz kənd təsərrüfatı məhsullarının miqdarca az olmasına baxmayaraq Azərbaycan bu qəbildən olan məhsulların əkin sahəsinə görə Asiya ölkələri arasında onbirinci ölkədir.

Cədvəl 4

2018-ci ildə Asiya dövlətləri arasında ekoloji təmiz kənd təsərrüfatı məhsulları istehsal edən ən çox əkin sahəsi olan ölkələr (hek.)

| Ölkələr | Əkin sahəsi (hek.) | Asiya regionunda payı %-lə | İstehsalçıların sayı |
|---|---|---|---|
| Çin | 3135000 | 47,9 | 6308 |
| Hindistan | 1938221 | 29,6 | 1149371 |
| İndoneziya | 251631 | 3,8 | 18162 |
| Vyetnam | 237693 | 3,6 | 17169 |
| Filippin | 218570 | 3,3 | 12366 |
| Qazaxıstan | 192134 | 2,9 | 63 |
| Tayland | 95066 | 1,5 | 58490 |
| Şrilanka | 77169 | 1,2 | 1416 |
| Pakistan | 64885 | 0,99 | 415 |
| Timor-Leste | 63882 | 0,97 | 4 |
| Azərbaycan | 37630 | 0,6 | 305 |
| **Cəmi:** | 6 537 226 | 100 | 1 317 023 |

Bütövlükdə Azərbaycanın BƏB-də kənd təsərrüfatı və ərzaq məhsulları ixracında üstünlük təşkil edə bilən sahələrini aşağıdakı kimi qruplaşdıra bilərik:

1-ci qrupa daxil olan sahələr: rəqabət üstünlükləri yüksək olan meyvə-tərəvəzlərin istehsalı və emalı sənayesi və şərabçılıq sənayesi məhsulları;

2-ci qrupa daxil olan sahələr: idxal xammalına əsaslanan bitki yağları, şəkər və şəkər məhsulları və çay yarapağı;

3-cü qrupa daxil olan sahələr: sənaye xammalı təyinantı pambıq, ipək, tütün və gön-dəri məhsulları.

"**Azərbaycanın beynəlxalq əmək bölgüsündə iştirakının genişləndirilməsi istiqamətləri**" adlanan **üçüncü fəsildə** Azərbaycanın hazır məhsullar və xidmətlər üzrə beynəlxalq əmək bölgüsündə yerinin möhkəmlənməsi, respublikamızda məmulat və yarımfabrikatların istehsalının artırılmasının ölkəmizin beynəlxalq əmək bölgüsündə iştirakının genişləndirilməsinə təsiri araşdırılmış, Azərbaycanın beynəlxalq əmək bölgüsündə mövqeyinin inkişafına təsir edən vasitələr

müəyyənləşdirilmişdir. Bu fəsildə aşağıdakı nəticələr əldə edilmişdir.

**I. Respublikamızın xammal və yarımfabrikatlar üzrə beynəlxalq əmək bölgüsündə iştirakının genişləndirilməsi prioritet istiqamət kimi müəyyənləşdirilmişdir.**

**II. Ölkənin beynəlxalq əmək bölgüsündə mövqeyinin gücləndirilməsi istiqamətində təklif və tövsiyyələr işlənib hazırlanmışdır.**

Azərbaycan neft respublikası olduğuna görə ölkəmiz tarixən yaxşı inkişaf etmiş neft-mədən maşınqayırma sənayesinə malik olmuşdur. Respublikamızın maşınqayırma sənayesinin ən inkişaf etmiş sahələrinə aşağıdakılar aiddir: neft maşınqayırması, elektronika, elektrotexnika, cihazqayırma, məişət texnikası və başqaları.

Hazırda isə neft maşınqayırma müəssisələri öz istehsal güclərinin 6-8%-i ilə işləyir. Sahənin ölkəmizin ÜDM-də xüsusi çəkisi 2%-dən də azlıq təşkil edir. Azərbaycanın əsas maşınqayırma sənayesi məhsulları aşağıdakılardır: qazma qurğuları və neft sənayesi üçün avadanlıqlar, o cümlədən, nasoslar, qaldırıcı kranlar, transformatorlar, metalkəsən dəzgahlar, ölçmə apparatları və başqaları. Azərbaycan neft-mədən maşınqayırma sahəsinə xidmət edən güclü elmi potensial vardır.

Respublikamızın təkcə neft sənayesində xam neftin ixracından başqa xidmətlər üzrə BƏB-də perspektiv ixtisaslaşma istiqamətlərinə aşağıdakılar daxil edilə bilər:

- neft yataqlarının kəşfi, yataqların iqtisadi cəhətdən qiymətləndirilməsi;
- neftin hasilatı layihəsinin işlənib hazırlanması;
- neft kəmərlərinin çəkilməsi layihələrinin tərtibi;
- yeni neft hasilatı və emalı maşınlarının, avadanlıqlarının işlənib hazırlanması üzrə konsultativ xidmətlər;
- maşın və avadanlıqların buruqlarda quraşdırılması, işə salınması və idarə edilməsini;
- mövcud maşın və avadanlıqların emal xətlərinin modernizasiyası proektlərinin tərtibi;
- neft buruqlarına servis xidməti;
- ali məktəblərdə neft və qaz sahəsində təhsil xidmələrinin göstərilməsi;
- neft-qaz sahəsində çalışan aşağı və orta ixtisas dərəcəli işçilərin ixtisasartırma kurslarının təşkili;

- Azərbaycanda, neft sahəsi elmlərinin tədqiqatçılarından alınan yeniliklərin istifadəsi və ixracı mexanizminin işlənib hazırlanması.

Respublikamızın neft sənayesi məhsullarının ixrac strukturunda xüsusilə xam neft, eləcə də dizel yanacağı, kerosin və avtomobil benzini daha çox üstünlük təşkil edir.

Neft çıxarma sənayesinin əsas etibarilə ixraca istiqamətlənməsi bu sahədə stimullaşdırıcı tədbirlərin həyata keçirilməsini zəruri edir. Bu tədbirlər yalnız xammal istehsalını və satışını deyil, eyni zamanda sahədə BƏB-in üstünlüklərindən faydalanmaq üçün digər elementlərinin ixracını da əhatə etməlidir.

Müasir dövrdə Azərbaycanın BƏB-də ixtisaslaşması üçün potensial imkanlara malik sferalardan biri də beynəlxalq turizm xidmətlərinin ixracı olmalıdır. Azərbaycanda beynəlxalq turizmin inkişaf etdirilməsini şərtləndirən, onun inkişafı üçün əlverişli ilkin şərait yaradan bir çox amillər vardır:

1) Azərbaycan ərazisinin 20%-i turizm üçün yararlıdır;

2) Azərbaycan dünya ərazisinin 0,058%-nə malik olduğu halda, dünya üzrə bütün bitki növlərinin 0,84%-i (o cümlədən 70 növ endemik bitki) burada bitir. Yəni, Azərbaycanda bitkilərin, təbiətin zənginliyi, rəngarəngliyi planetimizdəkinə nisbətən 14 dəfə çoxdur.

3) Azərbaycanda 200-dən çox mineral su (onlardan 60-ı müalicəvi əhəmiyyətlidir), 250 müalicəvi palçıq mənbəsi, 124 kurort zonası vardır.

4) Azərbaycanda 15 qoruq, 18 yasaqlıq, 2 ovçuluq təsərrüfatı, 2130-dan çox qorunan təbiət abidəsi vardır. Ümumiyyətlə, Azərbaycanda bu və ya digər şəkildə qorunan təbiət obyektlərinin sayı 2165-dən çox olub dünyadakının 5%-i qədərdir.

5) Azərbaycanda yüzlərlə müxtəlif dövrləri əhatə edən (ilk insan məskənlərindən XIX əsrədək) tarixi abidə və abidə kompleksləri vardır.

Azərbaycanda hələ də mövcud olan müxtəlif növ xalq sənətlərini dirçəltməklə ölkəmiz beynəlxaq turizmdə ən iri suvenir ixraccısına çevrilə bilər. Onu da qeyd etmək lazımdır ki, həmin sənətkarlıq növlərinin çoxu (məsələn: təkəlduzçuluq, keçəçilik) yalnız respublikamıza xarakterikdir.

Azərbaycanda beynəlxalq turizmin inkişaf etdirilməsi və ölkəmizin BƏB-də bu istiqamətdə ixtisaslaşmasının təmin edilməsi üçün ilk növbədə aşağıdakı tədbirlərin həyata keçirilməsi vacib əhəmiyyət kəsb edir:

1) Dövlətin turizm obyektlərinin özəlləşdirilməsinin sürətləndirilməsinin stimullaşdırılması;

2) Regionlarda beynəlxalq turizmin inkişafı üzrə dövlət proqramının hazırlanması və həyata keçirilməsi;

3) Təbii və tarixi-mədəni mühitin rasional istifadəsi və bərpası qaydalarının müəyyənləşdirilməsi;

4) Müasir beynəlxalq turizm infrastrukturunun formalaşdırılması (dünya standartları səviyyəsində qaz, su, işıq, istilik, kanalizasiya sistemləri, nəqliyyat-yol kompleksləri və s.);

5) Azərbaycanda təmirə ehtiyacı olan çoxsaylı turizm obyektlərinin rekonstruksiya işlərinin dünya standartları səviyyəsində başa çatdırılması;

6) Ciddi problemlərdən biri ondan ibarətdir ki, turbaza, pansionat, sanatoriya, otellərin əksəriyyəti qaçqınlar tərəfindən tutulmuşdur. Qaçqınlara güzəştli şərtlərlə torpaq paylayıb ev tikintisinə də uzunmüddətli ssuda verərək həmin turizm obyektlərindən köçürmək lazımdır;

7) Azərbaycanda beynəlxalq turizmin inkişafının əsas problemlərindən biri də bu sahədə yüksək ixtisaslı kadrların olmamasıdır. Hətta fəaliyyət göstərən turizm obyektlərinin sahibləri belə bu sahədə ixtisaslı olan şəxslər deyildir;

8) Beynəlxalq səviyyədə aktiv reklam siyasətinin həyata keçirilməsi;

9) Azərbaycanda beynəlxalq turizmin inkişafına mövcud qoruqların bəzilərinin bazasında milli parkların yaradılması da əsaslı kömək edərdi;

10) Yerli orqanların bu işdə iqtisadi maraqlarını gücləndirmək üçün turizm sferasında təşkilati və idarəetmə funksiyalarının çox hissəsini onlara vermək lazımdır və turizmdən gələn gəlirlərin əksər hissəsi da rayonların büdcəsinə köçürülməlidir.

11) Müxtəlif vergi güzəştlərinin tətbiq edilməsi. Məsələn, Fransada ƏDV bütün sahələrdə 22%, turizm üzrə 12%-dir.

12) Tarixi abidələrin, muzeylərin, milli parkların və s. bu kimi turizm əhəmiyyətli obyektlərin, həmçinin bu obyektlərin fəaliyyəti ilə bağlı infrastrukturun idarəedilməsinin ixtisaslı milli və ya xarici menecmentə həvalə edilməsi.

Məmulat, yarımfabrikatlar üzrə ixtisaslaşma və beynəlxalq kooperasiya əlaqələrində iştirakın milli firmalarımız üçün mühüm əhəmiyyətə malik tərəfləri vardır. Onlardan bəzilərini aşağıdakı kimi göstərmək olar:

1) Məmulatlar və yarımfabrikatlar üzrə ixtisaslaşma hazır əmtəə istehsalına nisbətən az həcmdə investisiya qoyuluşu, texnologiya, ETTKİ xərcləri və s. məsrəflər tələb etdiyi üçün kapital resurslarının məhdudluğundan əziyyət çəkən respublikamızda belə müəssisələrin təşkili nisbətən asandır.

2) Hazır əmtəə istehsalına nəzərən bu cür müəssisələrdə istehsalın texniki, texnoloji mürəkkəbliyinin nisbətən aşağı səviyyədə olmasına görə həmin firmalar dünya bazarında baş verən hər hansı dəyişikliyə çox çevik reaksiya vermək qabiliyyətinə malik olurlar.

3) Məmulatlar, yarmıfabrikatlar üzrə BƏB-də ixtisaslaşma zamanı, hazır əmtəə istehsalından fərqli olaraq, marketinq siyasəti əsasən subyektiv şəxsi fikirlərin üstünlük təşkil etdiyi kütləvi istehlakçıların deyil, obyektiv peşəkar fikirlərin üstünlük təşkil etdiyi məhdud istehlakçıların cəlb edilməsinə yönəldiyindən dəfələrlə az xərc tələb edir.

4) Hazırkı dövrdə sənayedə (xüsusən maşınqayırmada) əsas meyllərdən biri hissə və qovşaqların unifikasiyasıdır. Unifikasiya müxtəlif əmtəələrdə istifadə olunan eyni məmulat və detalların, yarımfabrikatların sayının çoxaldılmasını nəzərdə tutur.

Yarımfabrikatlar üzrə respublikamız BƏB-də 3 əsas istiqamətdə ixtisaslaşa bilər: kimya, tikinti və farmakoqnoziya sənayeləri.

Bu gün respublikamızın süni lif, odadavamlı materiallar, izolyasiya örtükləri, plastik kütlələr, aşqarlar (istehsalına görə Azərbaycan SSRİ-də I yerdə idi), etilen, etil spirti, kükürd turşusu və s. bu kimi məhsulların ixracı üçün böyük potensialı mövcuddur.

Azərbaycanın BƏB-də yarımfabrikatlar üzrə ixtisaslaşmasının ən vacib qollarından biri də farmokoqnoziya məhsulları, yəni müalicəvi əhəmiyyətə malik bitkilərdən hazırlanan nisbətən emal edilmiş xammalın istehsalı və ixracıdır. Ölkəmizin bu sahədə üstünlükləri olduqca

böyükdür. Bu gün farmakoqnoziya ekspertlər tərəfindən tibbin ən güclü inkişaf perspektivinə malik sahəsi kimi qiymətləndirilir. Bu müasir dövrdə bütün dünyada ekoloji cəhətdən təmiz əmtəələrə, o cümlədən təbii preparatlara artan tələb ilə izah olunur. Azərbaycanda 300-dən çox müalicəvi əhəmiyyətli bitkilər vardır. Onlar ümumilikdə 2000-dən çox xəstəliyin müalicəsində uğurla istifadə oluna bilər. Digər tərəfdən həmin bitkilərdən vitamin, polivitamin, qüvvətləndirici preparatların, bioloji aktiv qida əlavələrinin istehsalı üçün də çox qiymətli xammaldır.

Azərbaycanın beynəlxalq əmək bölgüsündəki mövqeyinin gücləndirilməsi üçün zəruri stimullar yaradılmadan bu istiqamətdə əhəmiyyətli nəticələrə nail olmaq mümkün deyil.

Azərbaycanın BƏB-də mövqeyinin inkişafına təsir edən stimulların yaradılması üçün səyləri, fikrimizcə, 5 əsas istiqamətdə cəmləşdirmək lazımdır:

1) İxracyönlü BƏB modelinin ölkə iqtisadiyyatına hərtərəfli tətbiqinə nail olmaq;

2) Respublikamızı birbaşa xarici investisiyaların yatırılmasının dünya miqyasında ən cəlbedici obyektlərdən birinə çevirmək;

3) Ölkədə elmi-texniki prosesləri hərəkətə gətirmək, sürətləndirmək, Azərbaycanı əmtəə idxalçısından müasir texnologiyaların idxalçısı və istehsalçısına çevirmək;

4) Milli təsərrüfatın fəaliyyətinin əsas hissəsinin resursların təkrar emalı üzərində qurulmasına nail olmaq;

5) Milli təsərrüfatın bütün həlqələri və fazalarında rəqabətqabiliyyətliliyin beynəlxalq miqyaslara qədər artırılması üçün zəruri tədbirlər hazırlamaq və reallaşdırmaq.

Respublikamızın BƏB-də mövqeyinin yaxşılaşdırılması yolunda atılan ən birinci addım iqtisadi artımın ixracyönlü modelə əsaslandırılmasıdır. Bu sahədə dünya təcrübəsinə əsaslanan effektiv dövlət proqramının yaradılması artıq zamanın tələbinə çevrilmişdir.

Bunun üçün ixracın stimullaşdırılmasının beynəlxalq təcrübədə geniş tətbiq olunan metod və vasitələrindən istifadə etmək lazımdır. Bu metodlara aşağıdakıları göstərmək olar:

1) İxracın kommersiya bankları ilə dövlət tərəfindən birgə kreditləşdirilməsi;

2) Milli ixracçıları kreditləşdirən banklara dövlət qarantlarının verilməsi;

3) Azərbaycan məhsullarını alan xarici firmalara dövlət tərəfindən, yaxud dövlət qarantı ilə kommersiya bankları tərəfindən kreditlərin təqdim edilməsi;

4) İxracçıların kreditlərə görə kommersiya banklarına ödədikləri faizlərin bir hissəsinin dövlət tərəfindən subsidiyalaşdırılması;

5) İxracçılara milli nəqliyyat tarifləri ilə beynəlxalq nəqliyyat tarifləri arasındakı fərqin ödənilməsi;

6) İxracın birbaşa dövlət tərəfindən sığortalanması;

7) İxrac kreditlərinin dövlət tərəfindən sığortalanması;

8) İxracçı müəssisələrin idxal etdikləri əsas fondlardan tutulan gömrük rüsumlarının azaldılması və ya ləğvi;

9) Dövlət tərəfindən ixracçılara informasiya, marketinq, məsləhət istiqamətli aşağıdakı xidmətlərin göstərilməsi:

a) Azərbaycan müəssisələrinin «tam məlumat bazası»nın yaradılması;

b) xarici ölkələrin belə bazaları ilə əlaqələrin təşkili;

c) milli ixracçıların xarici ölkələrin qanunvericiliyi, bazar fəaliyyətinin qaydaları, mövcud standartlar və əmtəənin keyfiyyətinə olan digər tələblər haqqında konsultasiya edilməsi.

10) İxracçı firmaların xarici bazarların tədqiqi üzrə marketinq proqramlarının dövlət tərəfindən maliyyə cəhətdən dəstəklənməsi;

11) Fəaliyyətini xarici lisenziyalar əsasında qurmuş ixracyönlü firmalara əlahiddə güzəştlərin tətbiqi;

12) Elmi-tədqiqat institutlarının, ali təhsil ocaqlarının kadr potensialının dövlət tərəfindən fəal sürətdə xarici iqtisadi fəaliyyətin problemlərinin araşdırılması məsələsinə cəlb edilməsi və onların elmi araşdırmalarının nəticələrinin aktiv şəkildə ixracyönlü firmalara ötürülməsi.

Respublikamızın BƏB-də mövqeyinin yaxşılaşdırılması məqsədilə həyata keçirilməli olan ən vacib məsələlərdən biri Azərbaycanı birbaşa investisiyaların əsas idxalçılarından birinə çevirməkdir. Azərbaycanı birbaşa investisiyalar üçün cəlbedici ölkəyə çevirə bilməsək onun BƏB-də iştirakının milli maraqlar baxımından səmərəliliyinin artırılması üçün hazırlanan tədbirlərin əksər hissəsi kağız üzərində qalacaqdır.

Respublikamızın investisiya cəlbediciliyinin daha da artırılması məqsədilə yuxarıda göstərilənlərdən əlavə ilkin mərhələdə həyata keçirilməsi zəruri olan təbdirlər kimi aşağıdakıları təklif etmək olar.

1) Layihənin risk dərəcəsindən asılı olaraq investorlara müxtəlif mükafatların təyin edilməsi praktikasının geniş yaymaq lazımdır.

2) Xarici investorlara verilən güzəştlər, imtiyazların səviyyəsi onların fəaliyyətinin nəticəsinin beynəlxalq səviyyədə rəqabətqabiliyyətli, yüksək texnoloji, ekoloji cəhətdən təmiz olması və s. şərtlərdən asılı olmalıdır.

3) Layihələrin təsdiqinin çoxmərhələli olması, aralıq mərhələlərlə həddən artıq yüklənməsi aradan qaldırılmalıdır.

4) Ölkədən kənara çıxarılmış kapitalın geri qaytarılması - mütəxəssislərin fikrincə həmin kapitalın həcmi 10-15 milyard ABŞ dolları təşkil edir.

5) İqtisadiyyatın real sektoruna yönəldilmiş investisiya layihələrindən gələn bank gəlirlərinin vergilərdən azad edilməsi zəruridir (müəssisələrə verilən kredit nəzərdə tutulmur).

6) Perspektivdə ölkəyə güclü investisiya axınına şərait yaratmaq üçün hazırkı dövrdə investisiyaların bir hissəsini müvafiq infrastrukturun yaradılmasına yönəltmək lazımdır.

7) Əhalinin əlində cəmlənmiş vəsaitlərin investisiyalara yönəldilməsi yollarının işlənib hazırlanması - burada ən çətin problem əhalinin banklara olan inamının bərpa edilməsidir. Bunun üçün isə dövlət bir tərəfdən bankların fəaliyyəti üzərində nəzarəti gücləndirməli, digər tərəfdən isə əhaliyə onların banklara qoyulmuş vəsaitlərin 100% qaytarılacağı haqqında zəmanət verməlidir.

Müasir dövrdə Azərbaycanın beynəlxalq əmək bölgüsündə mövqeyinin yaxşılaşdırılması istiqamətində mühüm məsələlərdən biri maşın və avadanlıqlar idxalının yüksək texnologiya, patent, lisenziya idxalı ilə tədricən və tam şəkildə əvəz edilmsi, respublikamızın müasir texnika və texnologiyaların iri istehsalçısına çevrilməsinə nail olmaqdır.

Hesab edirik ki, dövlət perspektivdə milli mənafelərin qorunması və səmərəli şəkildə reallaşdırılması naminə öz səylərini ölkə daxilində elmi-texniki və innovasion proseslərin inkişafı üçün əlverişli şəraitin formalaşdırılmasına yönəltməlidir. Bu məqsədlə yaxın gələcəkdə

aşağıdakı tədbirlərin həyata keçirilməsi çox vacib əhəmiyyət daşıyır.

1) Azərbaycanda innovasiya inkişaf modelinə keçidi sürətləndirmək üçün bu işə rəhbərlik edəcək konkret orqan yaradılmalıdır. Həmin agentliyin yürüdəcəyi elmi-texniki siyasətin əsas vəzifəsi milli innovasiya sisteminin formalaşdırılması, milli iqtisadiyyatı ETT-nin nəticələri və yeni texnologiyalarla təmin edəcək mexanizmin bütün həlqələrinin yaradılması, inkişaf etdirilməsi olmalıdır.

2) Elmi-texniki tədqiqatların, innovasion layihələrin reallaşdırılmasına yönəldilən hər cür xərclərin (fiziki, hüquqi şəxslərin, bankların investisiyalarının) və elmi-texniki fəaliyyətinin bütün növ vergilərdən tamamilə azad edilməsi.

3) Şirkətlərin ETTKİ üçün ayırdıqları kapitalın artım hissəsinin vergilərdən azad edilməsi;

4) Müəssisələrin vergi qoyulan gəlirlərindən ETTKİ-ni maliyyələşdirməsi üçün borc aldıqları vəsaitə görə ödədikləri faizləri çıxmaq;

5) Müəssisələrdə tədqiqat bölməsi işçilərinin, yaxud ümumiyyətlə bütün işçilərin ixtisas artırmasına, firmalarda kadr hazırlığına yönəldilən xərclərin vergilərdən azad edilməsi.

6) Lizinq şirkətlərin elmi tədqiqat və innavasion layihələrin reallaşdırılmasından əldə etdikləri gəlirlərin vergilərdən azad edilməsi.

7) Elmi-texniki və innavasion proyektlərin həyata keçirilməsi üçün gətirilən avadanlıqların gömrük rüsumlarından tamamilə azad edilməsi.

Azərbaycanın BƏB-də mövqeyinin yaxşılaşdırılmasına nail olmaq üçün milli iqtisadiyyatda resurslardan istifadənin intensivləşdirilməsini təmin etmək vacib amildir. Bu, xammal və hazır əmtəə istehsalında aralıq proseslərin azaldılması, ehtiyatların təkrar emal məqsədləri baxımından da istifadəsi, yüksək resurstutumlu sahələrin tədricən ləğv edilməsi, material və enerjiyə qənaət texnologiyalarnın tətbiq edilməsi, ilkin xammal hasilatı sahələrinin istehsal güclərinin resurslarının təkrar emalına yönəldilməsi, yəni enerji mənbələrinin yaradılmasını nəzərdə tutur.

Ölkəmizin BƏB-də mövqeyinin yaxşılaşdırılmasına kompleks yanaşma milli iqtisadiyyatımızın dünya təsərrüfatı miqyasında rəqabətqabiliyyətliliyinin artırılmasını tələb edir.

Fikrimizcə, Azərbaycanın rəqabətqabiliyyətliliyinin yüksəldilməsi

üçün aşağıdakı tədbirlər həyata keçirilməlidir:

1. Azərbaycan Respublikası Prezidentinin yanında rəqabətqabiliyyətlilik üzrə milli şuranın, elm və texnologiya üzrə milli şuranın yaradılması;

2. Rəqabətqabiliyyətliliyin hüquqi bazasının hazırlanması;

3. Təhsil Nazirliyi, İqtiadiyyat Nazirliyi, AMEA-nın İqtisadiyyat İnstitutu, Dövlət Standartlaşdırma və Sertifikasiya Komitəsinin birgə səyləri ilə Azərbaycanın rəqabətqabiliyyətliliyinin yüksəldilməsi ideologiyasının yaradılması;

4. 2018-2025-ci illəri əhatə edən «Azərbaycan iqtisadiyyatının rəqabətqabiliyyətliliyinin yüksəldilməsi proqramının işlənib hazırlanması;

5. AMEA nəznində Rəqabətqabiliyyətlilik İnstitutunun (bölməsinin) yaradılması;

6. Təhsil sisteminin rəqabətqabiliyyətliliyinin artırılması üçün Təhsil Nazirliyi nəzdində Rəqabətqabiliyyətlilik Akademiyasının yaradılması;

7. Müxtəlif sferalarda (idarəetmə, standartlaşdırma, hüquq sistemi, təhsil və s.) rəqabətqabiliyyətliliyinin yüksəldilməsi və idarəedilməsi üzrə tədris-metodiki vəsaitlərin buraxılması;

8. Rəqabətqabiliyyətlilik problemi üzrə ali məktəblərdə ixtisas kurslarının açılması.

Azərbaycanın BƏB-də səmərəli mövqe tutması naminə onun rəqabətqabiliyyətliliyinin yüksəldilməsi üçün ölkədə həyata keçirilən struktur siyasətinin strateji istiqamətlərini ən qısa şəkildə aşağıdakı kimi şərh edə bilərik:

1. Stabil və proqnozlaşdırıla bilən qanunvericilik sisteminin qurulması - bu sahədə hələ də ciddi problemlər mövcuddur - qanun qəbul edilir, demək olar ki, səhərisi gün ona düzəlişlər olunmağa başlayır.

2. İqtisadiyyatın çevik, cəld strukturunun formalaşdırılması üçün milli iqtisadiyyat ilk növbədə kiçik və orta müəssisələrə əsaslanmalıdır. Çünki kiçik müəssisələr iqtisadi mühitdə baş verən dəyişikliklərə tez uyğunlaşma qabiliyyətinə malikdirlər.

3. Bütün səviyyələrdə idarəetmənin keyfiyyətinin, operativliyinin və şəffaflığının artırılması.

4. Əmtəələrin, iqtisadi əməliyyatların reqlamentləşdirilməsinə,

keyfiyyətinə nəzarətin ciddiləşdirilməsinə - bu siyasətin əsas məqsədi daxili bazardan keyfiyyətsiz məhsulları sıxışdırıb çıxarmaq, qiymət rəqabətini keyfiyyət rəqabətinə çevirmək, istehsalın texniki və texnoloji standartlarının dünyanın son tələblərinə cavab verən dəqiq sistemini qurmaqdan ibarət olmalıdır.

**Dissertasiya mövzusu üzrə müəllifin aşağıdakı əsərləri nəşr olunmuşdur:**


1. N.H.Muxtarlı. "Azərbaycanda Beynəlxalq əmək bölgüsünün məkanlarında istifadənin yaxşılaşdırılması istiqamətləri" // ADDA-nın "Dəniz Nəqliyyatında İnnovativ Texnologiyalar" XI Beynəlxalq elmi-texniki konfransının məruzə materialları. Bakı: 2016.
2. N.H.Muxtarlı. "Ölkələrarası xarici iqtisadi əlaqələrinin genişləndirilməsində beynəlxalq əmək bölgüsünün rolu" / AMEA-nın xəbərləri, İqtisadiyyat seriyası. Elmi-praktiki jurnal. AMEA-nın İqtisadiyyat İnstitutu. Bakı: 2017, №5.
3. N.H.Muxtarlı. "Azərbaycanda Beynəlxalq əmək bölgüsündə iştirak zərurətləri" / AMEA-nın xəbərləri, İqtisadiyyat seriyası. Elmi-praktiki jurnal. AMEA-nın İqtisadiyyat İnstitutu. Bakı: 2017, №6.
4. Н.Х.Мухтарлы. «Стимулы, влияюшие на развитие позиций Азербайджан в международном разделение труду» / Экономика та держава. Наука во практичный журнал. Наказ Министерства освети и науки Украины № 3 серьезен 2018 р.
5. N.H.Muxtarlı. «Azərbaycanda sahələr üzrə beynəlxalq əmək bölgüsüdə iştirak imkanlarının qiymətləndirilməsi. Kooperasiya Elmi-praktiki jurnal "Azerittifaq" Azərbaycan Kooperasiya Universiteti. Bakı: 2018 (№ 2) (49).
6. N.H.Muxtarlı. Beynəlxalq əmək bölgüsünün modellərindən istifadə və milli iqtisadiyyatın inkişafı. Odlar Yurdu Universitetinin Elmi və Pedaqoji Xəbərləri. Azərbaycan Respublikası Odlar Yurdu Universiteti. Bakı: 2018 (№ 48).
7. N.H.Muxtarlı. Azərbaycanda Beynəlxalq əmək bölgüsünün üstünlüklərindən istifadə. "Müstəqil Azərbaycan dövlətinin ərzaq təhlükəsizliyinin təmin edilməsi və aqrar sahənin rəqabət

qabiliyyətinin yüksəldilməsi problemləri” // Beynəlxalq Elmi-Praktik Konfransın Materialları. “Azərittifaq” Aku Bakı: 2018.

8. Н.Х.Мухтарлы. «Обшая характеристика международной специализации и международная кооперация производства» / Вопросы управления и экономики: современное состояние актуальных проблем. Сборник статей по материалам XXVI международной научно-практической конференции. Москва: 2019, №8(24)



Dissertasiyanın müdafiəsi “25” iyun 2021-ci il tarixdə saat 14:00-da Azərbaycan Dövlət İqtisad Universitetinin nəzdində İqtisadi Araşdırmalar Elmi Tədqiqat İnstitutunda fəaliyyət göstərən FD 1.11 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: AZ 1001, Bakı şəhəri, İstiqlaliyyət küç., 6

Dissertasiya ilə Azərbaycan Dövlət İqtisad Universitetinin kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları Azərbaycan Dövlət İqtisad Universitetinin rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat “25” may 2021-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 07.05.2021. Kağızın formatı: 60x84 1/16.
Sifariş 05/01 Həcmi 1 ç.v. (41300 işarə)
Tiraj 100.

"AA – Poliqraf" istehsalat-kommersiya birliyində
hazır diopozitivlərdən istifadə olunmaqla çap edilmişdir.
*Email: capevi@internet.ru Əlaqə üçün: (055)2012809*